BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2014*

**UOT 070**

# PUBLİSİSTİKADA ÖZÜNÜDƏRK PROBLEMLƏRİ

**S.Q.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***journalisim. bsu.edu.az***

*H.Cavid ədəbi prosesə şeir və publisistik yazılar ilə gəlmişdir. O, 1903-cü ildən 1937-ci ilə kimi dramaturgiya ilə yanaşı publisistika ilə də məşğul olmuşdur. Onun publisistik məqalələrinin əksəriyyəti türkçülük, milli azadlıq, müstəqillik kimi ideyaların təbliğinə aiddir. Lakin sovet dövrü tədqiqatlarında ədibin publisistik yaradıcılığı tədqiqatdan kənarda qalmışdır.*

**Açar sözlər**: Hüseyn Cavid, fəlsəfə, özünüdərk, həyat, publisist, ideya

XX əsr Azərbaycan bədii publisistikasından bəhs olunarkən "Füyuzat"çılar üçün "önəmli o idi ki, çağdaş mədəni-mənəvi həyatımızın ağrıları ...ön plana çəkilsin" (12, 229). O zaman bu mədəni-mənəvi ağrılarımızdan biri və ən başlıcası savadsız xalqı elmə, maarifə cəlb etmək üçün yeniliyin xalq arasında təbliği məsələsi idi ki, H.Cavidin publisistik məqalələrinin böyük əksəriyyəti bu mövzunun təbliğinə həsr edilmişdir. Ona görə də, 20-ci yüzilliyin əvvəllərində yazıb-yaratmış Azərbaycan yazarlarının ədəbi-bədii, elmi irsi, o cümlədən publisistik yaradıcılığı tədqiqatçılarımız tərəfindən tədqiq edilərək oxucuların ixtiyarına verildiyi kimi, H.Cavidin də publisistik yaradıcılığı tədqiqata cəlb edilməli və elmi ictimaiyyətin diqqətinə çatdırılmalıdır.

Məhz bu publisistika C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, C.Hacıbəyli, Ü.Hacıbəyli, H.Vəzirov və digər publisistlərimizin yaradıcılığındakı kimi, milli-mənəvi dəyərlərə, müstəqillik ideyalarına, Vətənə və müqəddəs torpağa, böyük türkçülük və azərbaycançılıq ideyalarına söykənən, onun təbliğinə yönələn motivlərlə zəngindir. Ona görə də, çəkinmədən qeyd edə bilərik ki, H.Cavidin publisistikasında da özünüdərk problemləri əsas amillərdəndir.

Bütün bunlarla yanaşı, eyni zamanda H.Cavidin ədəbi irsi həm də tərbiyə məktəbidir. Burada Ümummilli Liderimiz Heydər Əliyevin sözlərini xatırlatmaq yerinə düşərdi: "Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli

sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır" (3, 3).

Unutmaq olmaz ki, H.Cavidin dramaturgiyasında, poeziyasında olduğu kimi publisistikasında da böyüməkdə olan gənclərin təlim-tərbiyəsi üçün çox zəngin material var. Milli kökə bağlılıq, dostluq, sülhsevərlik, sədaqət, humanizim, vətənpərvərlik, xeyirxahlıq kimi əxlaqi keyfiyyətlər H.Cavid yaradıcılığının leytmotivini təşkil edir. Ölkəmizdə böyüməkdə olan gənclərin milli ruhda, milli zəmində tərbiyə olunması əsas vəzifələrdən biri kimi qarşıya qoyulduğu indiki şəraitdə H.Cavid yaradıcılığının təlim-tərbiyəvi əhəmiyyətini, gənclərdə milli şüurun inkişafına onun təsirini də tədqiq edib öyrənmək qarşıya əsas məqsəd kimi qoyulur. Çünki H.Cavid yaradıcılığının sənətkarlıq xüsusiyyətləri filoloq alimlər tərəfindən lazımi şəkildə təhlil edilsə də, onun tədrisə tərbiyəvi təsiri, demək olar ki, araşdırılmamış və ictimaiyyətin diqqətinə çatdırılmamışdır.

Doğrudur, sonralar sovet dövründə H.Cavidin yaradıcılığındakı bu motivləri tədqiqatçıları inkar etdilər. Orta məktəblərdə çox böyük tərbiyəvi əhəmiyyətə malik olan "Qız məktəbində" şeiri haqqında 1926-cı ildə "Çocuq ədəbiyyatı və qiraət kitablarında üsul" adlı məqaləsində Mikayıl Rzaquluzadə yazırdı: "...H.Cavidin bu əsəri mütləq çocuqlar üçün yazılan kitablardan çıxarılmalı, əvəzinə bu günün zehniyyətinə görə əsərlər qoyulmalıdır" (16). Təbii, o zaman belə yazılmalı idi. Çünki Şura hökumətinin ideyalarını dəstəkləyən əsərlər yazmayan Cavidə münasibət dəyişilməli idi.

H.Cavid yaradıcılığı ilə bağlı söylənən fikirlər zaman keçdikcə, saf-çürük olunduqca, onun böyük sənətkar olması etiraf edilir. Məsələn, görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayev ədibin sosializm dövrünün keçici zahiri gerçəkliyinə qapılmadan, öz ruhu aləmini yaşadığını vurğulayır: "Romantik Cavid ən sərt, realist bolşevik gerçəkliyində də məqama xidmət etmədi, tarixi ana – sosializmə ötəri münasibət ifadə eləmədi, "ötüb-keçəcək" epoxaya "ötüb-keçən əsərlər həsr etmədi, özünün içərisindəki həyatı (və bu həyatda kodlaşan milli-etnik taleyi, yaddaşı) təsvir eləməkdə davam etdi" (8, 100).

"Ədəbiyyat və tərbiyəvi iki məfhumu günəş və işıq, həyat və fəaliyyət məfhumları kimi bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir"-söyləyən müdiriklər nə qədər haqlı idilər (V.Q.Belinski). Bu baxımdan H.Cavid yaradıcılığı diqqəti daha çox çəkir. Onun şəxsiyyəti, adamlara olan münasibəti, milli ənənəyə bağlılığı hər zaman gənclik üçün nümunə məktəbidir və qələminin məhsulu olan hər bir əsəri, publisistik məqaləsi sənət nümunələri kimi bədii idrak vasitəsidir.

"Zaman keçəcək, onilliklər, yüzilliklər bir-birini əvəz edəcək, hər şey dəyişəcək, dünya yeni yönə, yeni zövqlə istiqamətlənəcək, ancaq xalqın milli-mənəvi dəyərlərinə öz müqəddəs münasibəti heç vaxt dəyişməyəcəkdir" (1, 10). Deməli, təpədən-dırnağa maarifpərvərlik, vətənpərvərlik, millətsevərlik hissləri ilə zəngin olan H.Cavid yaradıcılığı da daima dərin minnətdarlıqla yad ediləcəkdir.

H.Cavid yaradıcılığı hər zaman diqqət mərkəzində olmuş, onları tədqiq

və təhlil edən ədəbiyyatşünaslar öz ədəbi-elmi fikir və münasibətlərini bildirmişlər. Nəticədə milli ədəbiyyatşünaslığımızda "cavidşünaslıq" deyilən maraqlı və zəngin bir sahə yaranmışdır. Təəssüflər ki, bu sahəyə yanaşma bəzi illərdə müxtəlif olmuşdur. Cavid yaradıclığına və şəxsiyyətinə münasibət siyasiləşdirilmiş, ona görə də, obyektiv və ya qeyri-obyektiv, hətta çox qərəzli də olmuşdur. "Bu da hər zamanın, dövrün ictimai mübarizələrin xüsusiyyətlərindən, məzmunundan, ideallarından asılıdır. Hər dövr, nəsil öz məqsədləri, ictimai meylləri üçün keçmiş irsdə bir dəlil, bir dayanacaq axtarır"(6, 12). Lakin 20-ci illərdən ədəbi tənqidin, fəlsəfi fikrin, teatrşünaslığın tədqiqat obyekti olan H.Cavidə bəraət verildikdən bir neçə il sonra da tədqiqatçılardan bəziləri onun irsinə obyektiv yanaşmadılar. Yenə də hakim partiyanın ideologiyası özünü büruzə verirdi. Məsələn, tədqiqatçı alim Məmməd Cəfər 1960-cı ildə yazırdı: "Cavidin inqilabdan əvvəlki yaradıcılığı çox ziddiyyətli və zəif idi" (9, 10). Alimin zəif və ziddiyyətli adlandırdığı bu dövrdə H.Cavid istər poeziyasında, dramaturgiyasında, istərsə də publisistikasında artıq çox güclü əsərlərini yaratmış və ədəbi aləmdə yetərincə tanınmışdır. İnqilabaqədərki dövrə kimi artıq Azərbaycan ədəbi mühitində H.Cavid romantik ədəbi məktəbin ən istedadlı nümayəndəsi kimi böyük şöhrət sahibi idi.

Zaman uzun illər Cavidə qarşı amansız olmuşdur. Ədəbiyyatşünas alim Yaşar Qarayevin söylədiyi kimi: "Cavid-zaman münasibətlərinin bəlkə də ən mürəkkəbi, təzadlısı və ibrətlisidir. Bu mürəkkəblik Cavidin yaşayıb-yaratdığı tarixi epoxanın öz narahatlığı ilə, öz fırtına və inqilabları ilə aşılanmışdır və dolayı inikasını (vulqar və bayağı ifratları ilə bərabər) bəzən Caviddən də çox cavidşünaslığın axtarışlarında tapılmışdır" (10, 6). Əslində sovet dövründə H.Cavid yaradıcılığı, şəxsiyyəti siyasi ideologiyanın qurbanı olmuşdur. Lakin danılmaz bir həqiqət var ki, "siyasi tələblər böyük əsərlərdə özünə bir dayanacaq tapmadıqda belə o əsərləri qiymətdən sala bilmir, belə əsərlər insan ruhunun, insan psixologiyasının daha dərin qatlarına təsir etdiyi üçün siyasi tələblərin hökmünə tabe deyildi" (6, 12). Heç bir qadağa, təzyiq H.Cavidi oxucularının qəlbindən silib ata bilmədi. Əlağa Vahid demiş: "Cavid əbədidir, qalacaq namı cahanda" (4, 5).

Cavid yaradıcılığının tədqiqi Abdulla Şaiq və Hənəfi Zeynallıdan başlayaraq Mustafa Quliyev, Əli Nazim, Seyid Hüseyn, Əziz Şərif, Xəlil İbrahim, Məmməd Arif, Mehdi Hüseyn, Məmməd Cəfər, Əli Sultanlı, Qulam Məmmədli, Məsud Əlioğlu, Rəfiq Zəka, Vəli Osmanlı, Rafael Hüseynov, Yaşar Qarayev, Zahid Əkbərov, Bəkir Nəbiyev, Şəmistan Mikayılov, Əjdər İsmayılov, Rasim Qurbanov, Kamran Əliyev, Azər Turan və digər alimlər tərəfindən ictimaiyyətə təqdim olunmuşdu. Doğrudur, bu təqdimat müxtəlif illərdə, müxtəlif aspektlərdən yanaşma prizmasında olub. Lakin buna baxmayaraq gərgin axtarışların sayəsində meydana çıxan hər bir əsər cavidşünaslığın inkişafında müəyyən dərəcədə rol oynadığı üçün onları inkar etmək heç də düz olmazdı.

Lakin unutmaq olmaz ki, onların böyük əksəriyyəti H.Cavid yaradıcılığına daha çox "siyasi ideyalar və ideallar mövqeyindən" yanaşmışdır.

Məsələn, 1920-ci ilin aprel süqutuna kimi və ondan üç-dörd il sonra da H.Cavid dövrü mətbuatda əsasən "Qafqaziyanın ən bənam məşhur şairi" (14), "Müqtədir zat", "Azərbaycanda ən müqtədir şair" (17) kimi hörmətlə təqdim edildiyi halda, 1926-cı ildən H.Cavid mətbuatda birmənalı olaraq "Məhdud görüşlü bir insan" (15), "Burjua ruhlu şair" (13) və s. qeyri-obyektiv tənqidlərə və təhqirlərə məruz qalmışdır.

Amma əsasən 1920-1940-cı illərdə Azərbaycan sovet ədəbiyyatşünaslığının diqqət mərkəzində olan H.Cavid yaradıcılığı birmənalı olaraq qeyri-obyektiv tədqiq edilsə də, diqqət mərkəzində idi. Hətta "1920-1980-cı illər cavidşünaslığın özü keçən əsrin 80-cı illərinin əvvəllərində xüsusi elmi-tədqiqat mövzusu kimi araşdırıl-mışdır" (7, 161).

Ədibin keçdiyi yaradıcılıq yolu "üç müxtəlif, çətin ictimai-siyasi şəraiti olan dövrə təsadüf etdiyindən yaratdığı əsərlər təzadlı və ziddiyyətli ideyaları ilə ədəbi tənqidin diqqətini hər zaman cəlb etmişdir" (11, 21). Təbii ki, bu da H.Cavidin yaradıcılığı ətrafında müxtəlif polemikaların yaranmasına səbəb olurdu. Çünki Hüseyn Cavid haqqında yazanlar dövrün tələbini əsas götürərək onun yaradıcılığında ziddiyyət axtarmışlar. Əgər H.Cavidin əsərlərində ziddiyyət varsa, o ictimai həyatdan gəlir. Bu ziddiyyət və onu doğuran səbəblər ədibin yaradıcılığının təhlilinə həsr olunmuş yazılarda da birmənalı qarşılanmır. Bu haqda Abdulla Şaiq Cavid haqqında xatirələrində yazırdı ki: "...Cavidin "İblis" faciəsini ideoloji cəhətdən tənqid edənlərə onun nə kimi təsir altında yazıldığını xatırlatmaq üçün şairin keçirdiyi müdhiş bir fəlakəti yazmaq məcburiyyətindəyəm.

"Cavid Bakıda köhnə Nikolayevski küçəsində yerləşən "Təbriz" otelində yaşayırdı. 1918-ci ilin mart hadisəsindən sonra yazıçı və münəqqid Hüseyn Sadiq ilə bərabər bizə gəlmişdi. Cavidin bət-bənizi ağarmışdı. O, son dərəcə nəşəsiz və mütəəssir görünürdü. Əhval sordum. Hüseyn Sadiq Cavidin əsir düşdüyünü və ölümdən qurtulduğunu söylədi. Sonra şair özü başına gələn qəzanı müfəssəl şəkildə belə danışdı: "Mart hadisəsinin ikinci günü bir dəstə qaçaq-quldur otelin qapısını qırıb içəri girdilər və altmış nəfərdən ziyadə müsafiri əsir aldılar. Mən vəziyyətin nə yerdə olduğunu hiss edərək getmək istəmədim. "Nə edəcəksiniz burada edin"-dedim, lakin hamımızı məcbur çıxarıb apardılar. Yolda hər tinbaşı üzərimizə yayım atəşi açıldıqca hamımız qorxudan yerə sərilir, bir-birimizə qısılırdıq. Sonra "Qalxın" əmri verilincə yoldaşlarımızdan bir çoxunun qurşunlara fəda olduğunu görürdük. Xülasə, altmış nəfərdən yalnız iki nəfər qaldıq. Bizi gətirib Mayılov teatrına buraxdılar. Aralıq sakitləşənə qədər orada qaldıq. Bu hadisədən olduqca mütəəssir oldum ..." (2, 205).

H.Cavid Azərbaycan səhnəsinin şah əsərlərindən olan "İblis" faciəsini bu acı təsirlər altında yazmışdır. Deməli, Cavidin əsərlərinin təhlilinə həsr edilən tədqiqatların əksəriyyətində bu ziddiyyət olduğunu deyənlər sadəcə o ziddiyyətə dövr, zaman prizmasından baxsaydılar, onun nisbi xarakter daşıdığı qənaətinə gələrdilər.

Ümumiyyətlə, Azərbaycan da sovet tənqidinin təşəkkülü və yüksəlişi

"vulqar-sosioloji mərhələ" deyilən dövrdə də Cavid yaradıcılığına münasibətdə özünün bütün zəif cəhətlərini subyektiv maksimalizimi, metodoloji və estetik təzahür ifratları ilə meydana çıxarmışdı" (10, 5). Lakin nəticə etibarilə ədibin yazıb-yaratdığı dövrün tənqidi fikri, Cavid sənətinin sirlərini aça bilməmişdir. Amma bu heç də o demək deyil ki, Azərbaycan sovet cavidşünaslığının xidmətlərini heçə endirmək lazımdır. Yox. Çünki o zaman Cavidin yaradıcılığını düzgün şərh etməyə, "müasir dövrlə və tarixlə əlaqələndirib, elmi-metodoloji cəhətdən düzgün qiymətləndirməyə can atan münəqqidlər də olmuşdur. Belələrindən Abdulla Şaiqin və nisbətən Hənəfi Zeynallının adını çəkmək olar"(3, 13). M.Cəfərin fikrincə isə "H.Cavidin yaradıcılığına ilk dəfə nisbətən düzgün qiymət verən tənqidçi Mustafa Quliyev olmuşdur" (9, 7). Amma bunlarla kifayətlənmək də düzgün olmazdı.

Lakin onlar da daxil olmaqla, H.Cavidin dramaturgiyası, poeziyası haqqında dönə-dönə bəhs edən bütün tədqiqatçı alimlər nədənsə onun publisistikasını tamamilə unutmuşdular. Hətta cavidşünasların "H.Cavid yaradıcılığının ən yaxşı tədqiqatçısı adlandırdıqları" (3, 6) akademik Məmməd Cəfər də onun publisistik yaradıcılığı haqqında bircə cümlə belə yazmayıb.

Cavidşünaslıq, xüsusilə də sovet cavidşünaslığı xüsusi elmi-tədqiqat mövzusu kimi öyrənildiyi, araşdırıldığı halda, Cavid publisistikasının araşdırılması, bu haqda irəli sürülən fikirlər, məqalələr heç bir elmi araşdırmanın predmetinə çevrilməmişdir. Unutmayaq ki, H.Cavid yaradıcılığı boyu publisistika ilə də məşğul olmuşdur. Onun publisistikasına məqalələrindən əlavə, məktubları da daxildir. Məmməd Tağı Sidqiyə, Qurbanəli Şərifzadəyə, Əziz Şərifə yazdığı bu məktublar arasında xüsusi yeri tələbə olarkən İstanbuldan, Tiflisdən, Bakıdan (Məsələn, sonuncu səkkizinci məktubu Bakıdan yazıb) Naxçıvana sevimli müəllimi Qurbanəli Şərifzadəyə yazdığı məktublar tutur. Bu məktublar 1906-cı ildən 1910-cu ilə qədər olan dörd il ərzində (Tiflisdən göndərilən məktub 1912-ci ilin mayında) yazılmış məktublardır. Təbii bu məktublar H.Cavidin "həyat və yaradıcılığında əhəmiyyətli olduğu kimi, tərcümeyi-halında da ən qaranlıq olan İstanbul dövrünü lazımi dərəcədə aydınlaşdırır"(5, 32).

Cavidin həmin məktubları haqqında ilk olaraq Ə.Şərif və Q.Məmmədli bəhs edib. Ə.Şərif çox haqlı olaraq qeyd edir ki, "İstanbuldan Naxçıvana yazılmış bu səkkiz məktubun məzmunu çox maraqlı və zəngindir. Burada istər Zaqafqaziyanın o günlərdəki siyasi və ictimai vəziyyəti (Tiflis və Tiflisdən Batuma gedən yol mənzərələri) ötəri də olsa təsvir edilir, istərsə də Türkiyə şəhərləri (Trabzon, Samsun, İstanbul) haqqında məlumat verilir" (5, 36).

Burada bir faktı da qeyd edək ki, bu səkkiz məktubun sonuncusu, yəni səkkizincisi Ə.Şərifin yazdığı kimi heç də İstanbuldan deyil, Bakıdan yazılıb. İlk an məktubun başında qeyd olunan tarixə fikir verək "5 mart 1910". Bildiyimiz kimi, H.Cavid bu tarixdə "Həqiqət" qəzetində, demək olar ki, günaşırı şeir və məqalələri ilə çap olunub. İkincisi məktubun məzmunu ilə tanış olarkən də bunun şahidi oluruq ki, məktub Bakıdan yazılıb.

Məktubların məzmunları ilə tanış olarkən hələ tələbə ikən gənc H.Ca-

vidin bu siyasi hadisələrə münasibət bildirməsi, qiymət verməsi və onlardan nəticə çıxarması onun böyük istedada malik olmasından xəbər verir. Deməli hələ çox gənc olmasına baxmayaraq ətrafda baş verən siyasi hadisələr də onun diqqətini cəlb edir və bu haqda fikir yürüdürdü. Bu məktublar haqqında isə növbəti məqalələrimizdən birində bəhs ediləçəkdir.

### ƏDƏBİYYAT


1. Azərbaycan publisistikası antologiyası. Bakı: Şərq-Qərb, 2007, 688 s.
2. Abdulla Şaiq. Xatirələrim. Bakı: Yazıçı, 1960, 223 s
3. Cavidi xatırlarkən. Məqalə və xatirələr toplusu. Bakı: Gənclik, 1982, 388 s.
4. Cavidşünaslıq. I cild. (araşdırmalar toplusu). Bakı: Elm, 2012, 240 s.
5. Əziz Şərif. Keçmiş günlərdən. Bakı: ADN, 1977, 301 s
6. Hacıbəyov Üzeyir. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985, 650 s.
7. Hüseynli Tural. Hüseyn Cavid və Azərbaycan mühacirət ədəbiyyatşünaslığı. Bakı: Azərnəşr, 2004, 174 s
8. Qarayev Yaşar. Faciə və qəhrəman. Bakı: Yazıçı, 1965, 250 s
9. Məmməd Cəfər. Hüseyn Cavid. Bakı: Azərnəşr, 1960, 262 s
10. Məmmədli Qulam. Cavid ömrü boyu. Bakı: Yazıçı, 1982, 296 s.
11. Məmmədova Sahibə. Hüseyn Cavid yaradıcılığında tarixilik və müasirlik. (avtoreferat). Bakı, 2013, 24 s.
12. Vəliyev Şamil. “Füyuzat” ədəbi məktəbi. Bakı: Elm və təhsil, 2004, 453 s.

*Qəzetlər və jurnallar*

13. “Gənc işçi” qəzeti, 1930 6 mart
14. “Kommunist” qəzeti, 1924 1 yanvar
15. “Maarif və mədəniyyət” jurnalı, 1926, №8
16. “Maarif işçisi” jurnalı, 1926, №10


## ПРОБЛЕМА САМОСОЗНАНИЯ В ПУБЛИЦИСТИКЕ Г.ДЖАВИДА


**С.Г.ГАСАНОВА**


### РЕЗЮМЕ


В статье речь идет о проблеме самосознания в публицистике Г.Джавида. Талантливый публицист, поэт-философ Гусейн Джавид является одним из выдающихся деятелей Азербайджана. Анализируются разные драматические произведения великого драматурга и проблема самосознания превращается в объект исследования с разных аспектов. Данная статья посвящена публицистической деятельности великого творца.



**Ключевые слова:** Гусейн Джавид, жизнь, философия, самосознание, публицист, идея

## THE PROBLEMS OF SELF-CONSCIOUSNESS IN PUBLICISM

**S.G.HASANOVA**

**SUMMARY**

The article studies the problem of self-consciousness in H.Javid's plays. The talanted publicist, poet-philosopher Huseyn Javid is one of the outstanding figures of Azerbaijan. The article is dedicated to the publicistic activity of the great creator.

**Key words:** publicism, life, philosophy, Huseyn Javid, self-consciousness